**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT REKLAM AGENTLİYİNİN**
**İDARƏ HEYƏTİ**

---

# QƏRAR

№ 11-3/25-İHQ/24

**Bakı şəhəri** “11” dekabr 2024-cü il

Açıq məkanda “Reklam yayımı zonalarının bölgüsünün müəyyən edilməsi Qaydaları”nın, reklam yayımı zonalarının yeni xəritələrinin və sərhədlərinin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1743 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Açıq məkanda reklam yayımına görə ödənilən haqqın məbləği”nin 2.3-cü və 2.5-ci bəndlərini rəhbər tutaraq, Bakı, Gəncə, Sumqayıt və Xırdalan şəhərlərinin intensiv inkişafı, həmin şəhərlərdə yeni yolların və yaşayış sahələrinin salınması, infrastruktur dəyişiklikləri, əhalinin və biznes subyektlərinin sayının artması ilə əlaqədar, adıçəkilən inzibati ərazi vahidlərinin reklam yayımı zonalarının bölgüsünün və Bakı şəhəri üzrə reklamın effektivlik dərəcəsinin kateqoriyalarının müvafiq xəritələrdə əks olunması, aidiyyəti zonaların sərhədlərinin müəyyənləşdirilməsi, habelə sözügedən fəaliyyətin təşkili ilə bağlı müddəaları özündə ehtiva edən qaydaların təsdiqlənməsi məqsədi ilə “Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin Nizamnaməsi”nin 3.5.10 və 3.5.18-ci yarımbəndlərinə əsasən İdarə Heyəti

qərara alır:

1. “Reklam yayımı zonalarının bölgüsünün müəyyən edilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. “Bakı, Gəncə, Sumqayıt və Xırdalan şəhərləri üzrə reklam yayımı zonalarının sərhədləri” təsdiq edilsin (əlavə olunur).

3. “Bakı şəhəri üzrə reklam yayımı zonalarının və reklamın effektivlik dərəcəsinin kateqoriyalarının xəritəsi” təsdiq edilsin (əlavə olunur).

4. “Gəncə şəhəri üzrə reklam yayımı zonalarının xəritəsi” təsdiq edilsin (əlavə olunur).

5. “Sumqayıt şəhəri üzrə reklam yayımı zonalarının xəritəsi” təsdiq edilsin (əlavə olunur).

6. “Xırdalan şəhəri üzrə reklam yayımı zonalarının xəritəsi” təsdiq edilsin (əlavə olunur).

7. Agentlik üzrə 04.01.2018-ci il tarixli 01 nömrəli əmrlə təsdiq edilmiş “Bakı şəhəri üzrə reklam yayımı zonalarının xəritəsi”, 14.02.2018-ci il tarixli 12 nömrəli əmrlə təsdiq edilmiş “Sumqayıt şəhəri üzrə reklam yayımı zonalarının xəritəsi”, 16.02.2018-ci il tarixli 13 nömrəli əmrlə təsdiq edilmiş “Xırdalan şəhəri üzrə reklam yayımı zonalarının xəritəsi” və 03.04.2018-ci il tarixli 25 nömrəli əmrlə təsdiq edilmiş “Gəncə şəhəri üzrə reklam yayımı zonalarının xəritəsi” qüvvədən düşmüş hesab edilsin.

8. 01 yanvar 2025-ci il tarixindən Bakı, Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində açıq məkanda reklam yerləşdirilməsinə görə verilmiş icazələr üzrə yayım haqqı məbləğləri bu Qərarın 3 – 6-cı hissələri ilə təsdiqlənmiş xəritələr əsasında hesablansın.

9. Müəyyən edilsin ki, bu Qərarın 8-ci hissəsində qeyd edilən tarixədək verilmiş icazələr üzrə yayım haqqı məbləğləri icazənin qüvvədə olduğu müddətdə dəyişilməz olaraq qalır.

10. Ərazi reklam idarələri reklam yayımı zonaları və reklamın effektivlik dərəcəsinin kateqoriyaları üzrə müəyyən edilmiş meyarlar barədə mütəmadi təhlillər apararaq, icmallaşdırılmış məlumatları hər ilin sonunda Agentliyin Aparatına təqdim etsinlər.

11. Agentliyin Aparatının İnformasiya texnologiyaları şöbəsi (Anar Xıdırlı) bu Qərarın 3-6-cı hissələri ilə təsdiqlənmiş xəritələrin Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

12. Agentliyin İdarə Heyətinin məsul katibi Nərgiz Nəsirova bu Qərarın surətinin göndərilmə siyahısına uyğun olaraq çatdırılmasını təmin etsin.

Əsas: Agentliyin İdarə Heyətinin 11 dekabr 2024-cü il tarixli iclasının 11-3/25-İHP/24 nömrəli protokolu

**İdarə Heyətinin sədri** **Fərhad Adıgözəlov**

**İdarə Heyəti sədrinin müavini** **Fəxri Abdullayev**